# Bağçada Novruz şənliyi

Təbiətin nazlı qızı bahar öz qədəmlərini yudumuza basdıqca böyük-kiçik hamı sevinir, xalqımız milli dəyərlərimizin təcəssümü olan Novruzu qarşılamağa hazırlaşır. Novruzun gəlişi ilə bağlı məktəbəqədər təhsil müəssisələrində də böyük canlanmalar nəzərə çarpır. Hər evdə, iş yerlərində səməni göyərdilir, Baharın gəlişi səbirsizliklə gözlənilir.

Bum qəsəbə uşaq bağçasında da yüksək bayram əhval-ruhiyyəsi özünü göstərir. Bağçamızda bir orta qrupda 20 uşaq tərbiyə olunur. Bağçada Novruz şənliyi təntənəli şəkildə keçirilmişdir. Şənlikdə uşaqlar müəllimləri ilə birlikdə şənlənmiş, oynamış, öyrəndikləri mahnıları oxumuşlar. Bağçanın müdiri Rahilə Sədirova uşaqları və kollektivin digər üzvlərini baharın gəlişi münasibəti ilə təbrik etmişdir. Valideynlərdən Rüşanə Hüseynova, Məhbubə Alcanova, Günay Qaragözova ürək sözlərini uşaqlarla bölüşmüş, onları Novruzun gəlişi münasibəti ilə təbrik etmişlər.



Maraqlı keçən Novruz şənliyində uşaqlardan Ömər Aslanov, Ruslan Alcanov, Fatimə Yolçuyeva, Tunçay Dadaşov, Ümid Babayev şeirlər söyləmişlər. Bayram şənliyi körpə fidanların sevincinə səbəb olmuşdur.

**Ədilə ƏDİLOVA,**
**bağçanın musiqi tərbiyəçisi.**

# Ümumdünya istehlakçılarının peşə bayramı

Hər il mart ayının 15-i Ümumdünya İstehlakçılar Günü kimi qeyd olunur. Bu günün təsis edilməsinin məqsədi qanun dairəsində hər bir istehlakçıya göstərilən xidmət keyfiyyətinin hüququnu qorumaqdır. Belə ki, aldığımız hər hansı bir əşya sağlamlığımıza və yaxud əmlakımıza ziyan vurarsa, onda onun əvəzini bərpa etməyi tələb etmək hüququmuz vardır. İstehlakçı gəlir əldə etmək məqsədi güdmədən əmtəələri alan və istifadə edən, xidmət və iş sifariş verən vətəndaşdır.

Ümumdünya İstehlakçılar İttifaqı dünyada istehlakçıların hüquqlarını qorumaqla məşğuldur. Hər bir ölkədə olduğu kimi Azərbaycanda da «İstehlakçıların hüquqlarının qorunması haqqında» Qanun qəbul olunmuşdur. Bu qanunla vətəndaşların istehlakçılıq hüququ qorunur, eyni zamanda ticarət təşkilatlarının və xidmətlə məşğul olan sistemin hüquq və vəzifələri müəyyənləşdirilir.

İstehlakçıların Hüquqlarını Müdafiə Günü ilk dəfə 1983-cü il martın 15-də qeyd olunmuşdur. İki il sonra-1985-ci il aprelin 9-da BMT Baş Məclisi istehlakçıların hüquqlarının müdafiəsi üçün rəhbər prinsipləri müəyyənləşdirdi. Bu prinsiplərin qəbul olunması nəticəsində istehlakçı hüquqları beynəlxalq səviyyədə tanınaraq qanuniləşdirildi.

**«Qəbələ».**

# Elimizə bahar gəlir

Novruz Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20-si, 21-i və ya 22-sində) keçirilən milli bayramdır. Bir sıra xalqlar, o cümlədən azərbaycanlılar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər.

Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir. Bu bayrama tarixi inkisaf boyunca baxdıgımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bagli olduğunu görürük. Tarixi cox qədim olan Novruz bayramı hər il xalqımız tərəfindən böyük təntənə ilə qeyd olunur. Novruz bayramı təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir.

Hər il Novruzdan, gecə və gündüzün bərabərləşməsindən əvvəl 4 çərşənbə qeyd olunur.

Birinci su çərşənbəsidir. Yəni bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib axır. Torpaq yavaş-yavaş islanmağa başlayır. Qızlar bulaqlardan sərin, şirin su gətirir, evin ətrafına çiləyir, üzlərini yuyurlar.

İkincisi od çərşənbəsi adlanır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Od çərşənbəsində tonqallar qalanır, hər ailə üzvünün adına bir dənə şam yandırılır, xonçalar düzəldilir.

Üçüncüsü yel çərşənbəsidir. Bəzi bölgələrimizdə çox əziz tutulur. Yəni yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yelləd ir.

Axırıncısı torpaq çərşənbəsidir. Ana təbiətimiz torpağı su ilə isladır, günəşlə isidir, onu yaratmağa hazırlayır. Analarımız «Səməni, saxla məni, ildə göyərdərəm səni»—deyib buğda isladırlar. Cərşənbələr bitdikdən sonra isə bayram qeyd olunur, bayram sufrəsi acilir. Novruz axşamında milli xörəklərimiz, ən başlıcası isə plov dəmlənir. Şəkərbura, paxlava, şəkər çörəyi və digər şirniyyatlar, kişmiş, püstə, badam, boyanmış yumurtalar süfrələrimizi bəzəyir. Adətə görə süfrəyə "s" hərfi ilə başlayan 7 növ ərzaq qoyulur. Su, süd, səməni, sünbül, sucuq, siyənək balığı, süzmə və s. bayram süfrəsinin bəzəyi hesab olunur. Çərşənbələrdə olduğu kimi, Novruz axşamında da tonqal qalanır, evlərdə ailə üzvlərinin hər birinin adına şam yandırılır. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara baş çəkmək, onlara bayram sovqatı vermək savab hesab edilir.

Sovet dövründə Novruz bayrami qeyri-rəsmi qeyd olunurdu, cünki hökumət orqanlari buna imkan vermirdilər və ümumiyyətlə dini bayramları qeyd edən insanları təqib edirdilər.

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir"—deyən Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Novruz bayramı dövlət səviyyəsində qeyd olunmağa başlandı.

2009-cu il sentyabrın 30-da Novruz YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir.

**Sədayə NƏZİROVA,**
**Heydər Əliyev Mərkəzinin əməkdaşı.**

*31 mart—Azərbaycanlıların Soyqırımı Günüdür*

# XX əsrdə erməni vəhşiliyinin bariz nümunəsi

Tarixi faktlar təsdiq edir ki, ermənilərin Qafqazda törətdikləri qırğınlar və soyqırım aktları qabaqcadan düşünülmüş bir plana, fakta əsaslanır. Onlar nəyin bahasına olursa-olsun bu torpaqlarda məskunlaşmaq və aborogen xalq olduqlarını təsdiqləməyə çalışmışlar. Odur ki, XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilər az müddət sonra bölgəni sözün əsil mənasında qan çanağına çevirdilər. 1918-ci ilin 30 mart və 3 aprel tarixlərində Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən dəhşətli soyqırımı onların Qafqazda məskunlaşmasına zəmin yaratdı.

Ermənilərin Azərbaycana qarşı tarix boyu apardığı ardıcıl etnik təmizləmə prinsipləri nəticəsində minlərlə insan evindən- obasından didərgin düşüb, 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insan öz torpaqlarından qaçmağa məcbur olmuşdur. Tarixi faktlara əsasən üç gün ərzində təkcə Bakıda 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüşdür. Şamaxıda 58 kənd dağıdılmış, 7 min nəfər, o cümlədən 1653 qadın, 965 uşaq məhv edilmişdir. Həmçinin Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzur qəzasında 145, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə-yeksan olunmuş, əhalisi isə qətlama məruz qalmışdır.

Tarixi araşdırmalardan məlum olmuşdur ki, bu hadisələrdə 131.970 nəfər öldürülmüşdür ki, bunun da əsas səbəbi milli mənsubiyyətləri olmuşdur. Eyni zamanda milli məmarlıq incilərimiz, məktəblərimiz, xəstəxanalarımız, məscidlərimiz və digər tarixi abidələrimiz dağıdılmış və kəndlərimiz xarabalığa çevrilmişdir. Təəssüf ki, ermənilərin yeritdikləri bu mənfur siyasət vaxtında beynəlxalq aləmdə lazımi səviyyədə ifşa olunmamış xalqımıza qarşı törədilən bu soyqırıma siyasi, hüquqi qiymət verilməmişdir.

Doğrudur, Azərbaycan Xalq Cumhuriyyəti yaradıldıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciəni təhlil etmək məqsədi ilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. İlkin mərhələdə ermənilərin törətdikləri ağır cinayətlər Şamaxıda, İrəvan quberniyası ərazisində araşdırıldı. Həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq işi Xarici İşlər Nazirliyi nəzdində yaradılmış xüsusi quruma tapşırıldı. Komissiya tərəfindən 36 cildlik material hazırlandı. Bu materiallar Alman, Rus, İngilis, Fransız dillərində çap edilərək qərb dövlətlərinə göndərilməsi nəzərdə tutulmuşdur. Lakin 1920-ci ilin 28 aprelində Sovet Ordusu Azərbaycan Demokratik Respublikasını süquta uğratdıqdan sonra həmin məsələyə xitam verildi.

Azərbaycanda, yenidən müstəqillik əldə edildikdən sonra xalqımızın keçmişinin bütün qaranlıq səhifələri anılmağa və öz hüquqi qiymətini almağa başladı. Ümummilli lider Heydər Əliyev 1992-ci ilin mart ayının 26-da imzaladığı fərmanla 31 mart—Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Erməni millətçilərinin əli ilə azərbaycanlıların kütləvi surətdə qırğına və repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir. XX əsrin həm əvvəllərində, həm ortalarında, həm də sonlarında ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş bir tarixdir.

31 mart—Azərbaycanlıların Soyqırımı Günü, bu müdhiş faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və dost xalqların nümayəndələri tərəfindən ürək ağrısı ilə qeyd olunur, soyqırımı faciəsi qurbanlarının əziz xatirəsi anılır. Bu ənənə bundan sonra da hər bir kollektivdə, mədəniyyət və tədris müəssisələrində özünəməxsus formada qeyd olunmaqla gənc nəslin yaddaşına həkk olunacaqdır.

**Fərman HACIYEV,**
**DİİXİHİ Qəbələ Rayon Komitəsinin sədri,**
**Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi.**